

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 53 (23.465)

*18 mart 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 2020-ci ilin yanvar-fevral aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2020-ci ilin yanvar-fevral aylarında 361 milyon 857 min 800 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz artaraq 786,8 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 175 milyon 957 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2020-ci ilin yanvar-fevral aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 73 milyon 750 min 800 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,8 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 70 milyon 471 min 700 manatı və ya 95,6 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2020-ci ilin yanvar-fevral aylarında 15 milyon 746 min 700 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 3694,3 ton, süd istehsalı 5228 ton olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,2 faiz, süd istehsalı isə 1,7 faiz artmışdır.

* * *

2020-ci ilin yanvar-fevral aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 9 milyon 372 min 500 manat olmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 1,1 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 7 milyon 637 min 500 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 2,7 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2020-ci ilin yanvar-fevral aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 27 milyon 661 min 900 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 3,4 dəfə çoxdur. Verilmiş kreditlərin 2 milyon 417 min 600 manatı və yaxud 8,7 faizi qısamüddətli, 25 milyon 244 min 300 manatı və yaxud 91,3 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 mart 2020-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 85869-a çatmışdır ki, bunun da 75476-sı və ya 87,9 faizi aktiv hesablardır. 2020-ci ilin yanvar-fevral aylarında açılmış 6392 bank hesabının 6389-u aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 mart 2020-ci il tarixə 1280-ə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2020-ci ilin yanvar-fevral aylarında 51 milyon 156 min 200 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 37 milyon 44 min 600 ABŞ dolları təşkil etmiş, 22 milyon 933 min ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2020-ci ilin yanvar ayında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 503,9 manat təşkil etmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 16,3 faiz çoxdur.

* * *

1 fevral 2020-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3515 nəfər artaraq 459 min 831 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Nazirlər Kabinetində 2020-ci ilin 2 mart tarixində "Naxçıvan Muxtar Respublikasında əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nın təsdiq edilməsi və "Naxçıvan Muxtar Respublikasında tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 may tarixli 51 nömrəli Qərarının ləğv edilməsi barədə və "Naxçıvan Muxtar Respublikasında əlilliyin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi və "Naxçıvan Tibbi-Sosial Ekspert Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 mart tarixli 27 nömrəli Qərarının ləğv edilməsi haqqında qərarlar qəbul edilmişdir. Qərar Naxçıvan Muxtar Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına, muxtar respublika ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və əcnəbilərə əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsini tənzimləyir.

Qəbul edilmiş digər qərarlardan biri Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 1999-cu il 9 sentyabr tarixli 158 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyasının Əsasnaməsi"nə dəyişiklik edilməsi haqqındadır. Sözügedən qərara uyğun olaraq komissiya avtomobil yollarında yol hərəkətini nizamlayan texniki vasitələrin quraşdırılmasına icazə verir, dövlət əhəmiyyətli yollarda yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi haqqında qərar qəbul edir, eləcə də, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, yol hərəkəti təşkilinin perspektiv proqramlarını və digər məsələləri həyata keçirir.

Nazirlər Kabinetinin 2020-ci il 2 mart tarixli 43 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının cəzaçəkmə müəssisələrində cəzaçəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin aparılması Qaydaları"nda dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən tərtib edilən məcburi müalicə tədbirləri yalnız narkoloji xəstə məhkumların səhhətinin yaxşılaşdırılmasına, həmin xəstəliyin doğurduğu digər fəsadların qarşısının alınmasına, narkoloji xəstə məhkumların normal həyat tərzinə qaytarılmasına və digər şəxslərin hüquqlarının pozulması hallarına yol verilməməsinə yönəldilir.

Bundan başqa, həmin tarixdə Nazirlər Kabinetinin 46 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativlər"i təsdiq edilmişdir. Adıçəkilən qərara görə bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət ümumi təhsil müəssisəsində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxemi və məbləğləri "Naxçıvan Muxtar Respublikasının dövlət ümumtəhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2016-cı il 3 avqust tarixli 79 nömrəli Qərarı ilə müəyyən edilir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 7 və 13 mart tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edilmişdir. Dəyişikliyə əsasən muxtar respublikaya idxal olunmuş steril və qeyri-steril əlcəklər və tibbi maskalar və respiratorların idxalı cari ilin iyun ayının 1-dək idxal gömrük rüsumundan azad edilmişdir. Digər dəyişikliyə görə reaktiv mühərrik yanacaqlarının idxal gömrük rüsumlarının dərəcələrində dəyişiklik olunmuşdur.

Qəbul edilmiş digər bir qərara görə "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi və psixoloji yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2013-cü il 3 may tarixli 46 nömrəli və "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 22 avqust tarixli 81 nömrəli qərarlarında dəyişikliklər edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 14 mart tarixli 57 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumtəhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nda dəyişikliklər edilmişdir. Dəyişikliyə əsasən müəllimlər diplom üzrə ixtisaslarına uyğun qiymətləndirilmədə iştirak edə bilərlər. Müvafiq ixtisaslı pedaqoji kadr çatışmazlığı səbəbindən müəllimə qiymətləndirilmədən keçdiyi ixtisas üzrə, eləcə də məzmun və mahiyyət etibarilə yaxın fənlər üzrə dərs saatları verilərsə, bu zaman əməkhaqqı artımı bütün dərs saatlarına şamil olunur.

Nazirlər Kabinetinin 2020-ci il 13 mart tarixli 53 nömrəli Qərarı ilə Naxçıvan Muxtar Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələri təsdiq edilmişdir. Qərara əsasən bir sıra spirtli və energetik içkilər və siqaretlərin idxalına görə ödənilən aksizin müəyyən hissəsinin icbari tibbi sığorta fonduna ödənilməsi müəyyən edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 13 mart tarixli 55 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında ümumtəhsil müəssisələrinin psixoloq ştat sayının müəyyən edilməsi haqqında" Qərar qəbul olunmuş və "Ümumtəhsil məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 22 avqust tarixli 81 nömrəli Qərarında dəyişiklik edilmişdir.

## Dövlət proqramının icrası əhalinin məşğulluq səviyyəsini artırıb

***Naxçıvan Muxtar Respublikasında əhalinin sosial güzəranının yüksəldilməsi istiqamətində atılan əməli addımların nəticəsi olaraq yeni-yeni iş yerləri açılır, insanların məşğulluğunun təmin edilməsi istiqamətində mühüm işlər görülür.***

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamına uyğun olaraq həyata keçirilən tədbirlərin nəticəsidir ki, proqram qəbul edilən gündən bu günə 11 min 524 yeni iş yeri, o cümlədən 2019-cu ildə 3250 yeni iş yeri açılıb. Ötən il muxtar respublikada iqtisadi fəal əhalinin 99,9 faizini iqtisadi sahədə məşğul olanlar təşkil edib. Təbii ki, yeni iş yerlərinin açılması insanların sosial rifah səviyyəsinin və ümumilikdə, muxtar respublika iqtisadiyyatının inkişafına təkan verir.

Müvafiq dövrdə aidiyyəti dövlət orqanları ilə birlikdə aparılan monitorinq və yoxlamaların nəticəsi olaraq 2016-cı ildə 424 hüquqi və fiziki şəxsdə 218 yeni əmək müqaviləsinin bağlanılmasına, 1066 şəxsin əməkhaqqının real əməkhaqqı səviyyəsində göstərilməsinə, 2017-ci ildə 573 hüquqi və fiziki şəxsdə 443 yeni əmək müqaviləsinin bağlanılmasına, 1475 şəxsin əməkhaqqının real əməkhaqqı səviyyəsində göstərilməsinə, 2018-ci ildə 676 hüquqi və fiziki şəxsdə 511 yeni əmək müqaviləsinin bağlanılmasına, 1811 şəxsin əməkhaqqının real əməkhaqqı səviyyəsində göstərilməsinə, 2019-cu ildə 355 hüquqi və fiziki şəxsdə 620 yeni əmək müqaviləsinin bağlanılmasına, 582 şəxsin isə əməkhaqqının real əməkhaqqı səviyyəsində göstərilməsinə, o cümlədən ölkədə minimum əməkhaqqı məbləğinin yüksəldilməsi ilə əlaqədar 539 şəxsin əməkhaqqının minimum əməkhaqqı səviyyəsinə yüksəldilməsinə nail olundu.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin qeydiyyatı 2020-ci ilin müvafiq aylarında da davam etdirilib. Belə ki, yanvar və fevral aylarında Dövlət Vergi Xidmətinin "bir pəncərə" qeydiyyat sistemi vasitəsilə 7 publik hüquqi şəxs, 7 kommersiya hüquqi şəxs və 3 qeyri-kommersiya hüquqi şəxs, həmçinin yerli vergi orqanları tərəfindən 518 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan fiziki şəxslərin 71 faizi muxtar respublika rayonlarının payına düşüb.

Muxtar respublikada həyata keçirilən sosial siyasətin əsas məqsədi əmək ehtiyatlarından daha effektiv istifadə etmək və əhalinin səmərəli məşğulluğuna nail olmaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

Müasirləşən kəndlərimiz

# Qəhrəmanlar kəndinin bu günü

## Yolumuz Aralığadır

*Qədim Şərur diyarı... Tarixlərin şahidi, inkişaf edib müasirləşdikcə qədimliyini, ululuğunu qoruyub saxlayan yurd yerimiz... Yolboyu tarixi mədəniyyətinə, mədəniyyəti ədəbiyyatına arxa olub milli dəyərlərimizi, adət-ənənələrimizi qərinələrin saxlancına ərməğan edən bu doğma diyarımın tarixindən əzəmət, mərdlik, mədəniyyətindən zəhmətkeşlik, ədəbiyyatından cəfakeşlik alan insanları barədə düşünürəm. Bu xüsusda, rayonun ən böyük yaşayış məntəqələrindən biri olan Aralıq kəndinin də özünəməxsus yeri var.*

Aralığı həm də qəhrəmanlar kəndi kimi tanıyırlar. Çünki Sosialist Əməyi qəhrəmanları Bahar xanım Talıbova, Abdulla Məmmədov, İsa Məmmədov bu yurdun övladlarıdır. Aralıqlılar dünən də qəhrəman, igid idilər, bu gün də qoçaq, vətənpərvərdirlər, torpağa bağlıdırlar. Onlar bunu ötən əsrin 90-cı illərində bir daha sübut etdilər. Erməni daşnaklarının torpaqlarımıza hücumu zamanı muxtar respublikanın digər sakinləri kimi, onlar da yurdu müdafiəyə qalxdılar, döyüş bölgələrinə yollandılar. O qanlı-qadalı illərdə bu kənd də şəhidlər verdi. İndi istər yuxarıda adlarını sadaladığımız Sosialist Əməyi qəhrəmanlarının, istərsə də şəhidlərin – Oqtay Məmmədov və Cəfər Babayevin xatirələri kənd sakinləri tərəfindən əziz tutulur, hər zaman yüksək ehtiramla anılır. Hər bir gənc bu vətənpərvər insanların həyat yolunu, torpağa məhəbbət hisslərini özünə örnək sayır.

Azərbaycan oğlu qəhrəmanlıq, şəhidlik üçün doğulub. Bu, atalarımızın rəşadəti, analarımızın südü ilə onların qanına hopub. Zaman-zaman qadınlarımız da kişilərdən geri qalmayıblar. İstər şəhidlik zirvəsinə ucalmaq kimi müqəddəs bir məqamda, istərsə də halal zəhmətləri ilə əmək cəbhəsində öz hünəri ilə dağı dağ üstünə qoyub min bir xariqə yaratmaq baxımından. Elə buradaca Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigarın elimizin qəhrəman qızı Bahar xanıma həsr etdiyi "Bahar" poemasından kiçik bir bəndi xatırlayıram:

*Sən ey Şərurumun qəhrəman qızı,*
*Baharlı yurdumun Baharısan sən.*
*Tufanlar önündə məğrur dayanan,*
*Torpaqdan güc alan çinarısan sən.*

Şərur rayonunun Aralıq kəndindən söhbət düşəndə ilk xatırlanan insanlardandır Bahar xanım. Adlı-sanlı əmək adamı, Sosialist Əməyi Qəhrəmanı, 4 dəfə SSRİ Ali Sovetinin deputatı seçilmiş Bahar xanımın adı qadın fədakarlığına, ismət və ləyaqətinə örnək kimi bu gün də dillər əzbəridir. Bəli, şairlər belə dəyərli insanlara çoxlu şeirlər, poemalar həsr edib, onların ömrünü şama bənzədiblər, "Sən yanmasan, mən yanmasam, o yanmasa, necə çıxar qaranlıqlar aydınlığa?", "Yaşamaq yanmaqdır, yanasan gərək, şam əgər yanmırsa, yaşamır demək", – deyib şairlərimiz. Ömrünü yana-yana başa vuranlar xalqın, el-obanın qəlbində dərin iz qoyub gedirlər. Onlar haqqında xoş xatirələr dildən-dilə, nəsildən-nəslə keçir. Bu cür insanlar heç vaxt unudulmur, onların xoş əməlləri daim yada salınaraq, gənc nəslə nümunə kimi təbliğ olunur. Bu gün böyük məhəbbətlə xatırladığımız Bahar xanım kimi...

Kəndə gəlişimiz əmək qadınının doğum gününə təsadüf edirdi. İlk baş çəkdiyimiz ünvan da elə qəhrəman qadının məzarı oldu.

### Burada tarix yaşayır, burada tarix qorunur

Tədqiqatlardan məlum olur ki, Aralıq 1727-ci ildə Yuxarı Aralıq və Aşağı Aralıq, XIX əsrdə Aralıq Kalba Əli xan, Aralıq Məhəmməd Əli bəy, XX əsrin 20-30-cu illərində Aralıq bəy və Aralıq xan adları ilə adlandırılıbdır. 1936-cı ildə kəndlərin adı dəyişdirilərək Aralıq xan kəndinə Yeni Kurulum, Aralıq bəy kəndinə isə Qəmbərabad adları verilib. Mənbələrin verdiyi məlumata görə, indiki Yuxarı Aralıq kəndi bir müddət də Aralıq Başkənd adlandırılıb və bu yaşayış məntəqəsindən çıxan gənc ailələr Aşağı Aralıq kəndinin əsasını qoyub. Buraya da Aşağı Aralıq Başkənd adı verilib. Sonralar toponimin tərkibindən "başkənd" komponenti düşərək kəndlərin adları Aşağı Aralıq və Yuxarı Aralıq şəklində rəsmiləşdirilib. Məlumat üçün bildirək ki, Azərbaycanın müxtəlif zonaları və Qərbi Azərbaycanda, o cümlədən qardaş Türkiyə Respublikasının İğdır vilayətində də "Aralıq" adlı yaşayış məntəqələri vardır. Aralıq qədim toponimdir. Bu toponimin mənşəyi XVI əsrdə Naxçıvan sancağında böyük bir eli təmsil edən Aralıq nahiyəsinin adı ilə bağlıdır. Əzəli Azərbaycan torpağı olan Aralıq nahiyəsində Reyhanlı, Şeyikli, Quzugündənli, Mürsəlli, Daşanlı, Şamdangələnli və digər əşirət və tayfalar yaşayıblar. XVI əsrdən Aralıq kəndində yaşayan tayfa və tirələr qədim toponimləri kənd adlarında qoruyub saxlayıblar. Həmin kəndlərin əhalisi bir-birinə qaynayıb-qarışıb. Onların xeyir-şərləri də həmişə bir olub.





### Aralıq sosial-iqtisadi inkişafdan pay alan kəndlərimizdən biridir

Aşağı Aralıq və Yuxarı Aralıq kəndlərinin sakinləri eyni məsciddən, eyni orta məktəbdən, uşaq musiqi məktəbindən, xəstəxanadan, mədəniyyət evindən, kitabxanadan, 512 nömrətutumlu elektron ATS-dən, poçt bölməsindən, baytarlıq məntəqəsindən istifadə edirlər. Bütün bu sadaladığımız sosial obyektlərin hamısı əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilib. Həmin vaxt Yuxarı Aralıq və Aşağı Aralıq kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklər üçün ucaldılan ikimərtəbəli iki inzibati bina da xüsusi gözəlliyi ilə diqqəti çəkir.

Kompleks quruculuq tədbirləri çərçivəsində kəndlərin mərkəzindən keçən yolun yatağı genişləndirilib, asfalt döşənib, səki salınıb, yol kənarındakı bütün həyətlərə təzə hasar çəkilib. Köhnə və təzə qəbiristanlıqlar hasara alınıb, məzarların ətrafına ağac əkilib, su xətti çəkilib, işıqlandırma sistemi quraşdırılıb. 2009-cu ildə Aralıqda daha bir obyekt – yeni ticarət mərkəzi də istifadəyə verilib. İki mərtəbədən ibarət olan binanın birinci mərtəbəsində ərzaq, qarışıq mallar və ət mağazaları yerləşir. İkinci mərtəbədə gözəllik salonu, dərzi, bərbər, xidmət sahələri, geyim və ətriyyat mağazaları, kompüter oyun salonu fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ticarət mərkəzinin açılış mərasimindəki çıxışı bu gün də yaddaşlarda yaşayır: ***"Kənddə içməli və suvarma su problemi həll olunub, kənd tamamilə qazlaşdırılıb, telefonlaşdırılıb, yolu abadlaşdırılıb. Muxtar respublikamızın bütün yaşayış məntəqələri kimi, Aralıq kəndi də daimi elektrik enerjisi ilə təmin olunur, əhalinin məişət problemlərinin həlli üçün belə mərkəzlər istifadəyə verilir. Əgər kənddə əhaliyə xidmət edən obyektlər olmasa, insanlar müəyyən çətinliklərlə qarşılaşar. Ona görə də qurulanlar qorunmalı, onlardan səmərəli istifadə olunmalıdır".***

Kənd sakinləri isə bu dövlət qayğısının müqabilində onların xoş və firavan həyat tərzi yaşamaları üçün inşa edilmiş bütün obyektlərin qorunub gələcək nəsillərə ərməğan edilməsi üçün səylərini əsirgəmirlər.

Odur ki, neçə illər bundan əvvəl həyata vəsiqə almış həmin tikililər öz görkəmi ilə yeni obyektlərdən seçilmirlər. Bu həm də tikilənlərə, qurulanlara, nəticə etibarilə, öz doğma yurd yerinə doğma və yanarlı münasibətin göstəricisidir.

### Aralığın təhsil uğurları

Şərurda öz müsbət ənənələri ilə öyünən təhsil ocaqlarından söhbət düşəndə Aralıq kənd tam orta məktəbinin də adı iftixarla çəkilir. Məktəbin yaranma tarixi də maraqlıdır. Belə ki, 1931-ci il yanvarın 25-27-də Azərbaycan Müəllimlərinin V Qurultayında ümumi icbari təhsilin həyata keçirilməsi, savadsızlığın ləğvi barədə qətnamə qəbul edildikdən sonra ölkəmizin bir çox bölgələri kimi, bu yaşayış məntəqəsində də məktəb açılıb. 1931-1932-ci tədris ilindən təhsil ocağı ilk dəfə iki siniflə fəaliyyətə başlayır. Məktəbdə təhsil sonrakı ildə 4, 1950-1961-ci illərdə 7, 1962-1982-ci illərdə isə 8 illik olub. 1983-cü ildə kənddə ikimərtəbəli, 624 şagird yerlik yeni məktəb binası tikilib istifadəyə verildikdən sonra isə bu təhsil ocağı tam orta məktəbə çevrilib. Ölkə Prezidenti cənab İlham Əliyevin "2010-2011-ci tədris ilində keçirilmiş "Ən yaxşı ümumi təhsil müəssisəsi" müsabiqəsinin qaliblərinin mükafatlandırılması haqqında" imzaladığı 2011-ci il 28 iyun tarixli Sərəncam ilə bu məktəb də müsabiqənin qalibi olub.

Aralıq məktəbi tarixən onun başını uca edən məzunları ilə fəxr edib. Onlardan yuxarıda qeyd etdiyimiz tanınmış zəhmət adamları ilə birlikdə müxtəlif sahələr üzrə elmi dərəcələr almış alimlərdən Əli Əliyevin, Əmir Quliyevin, Qənbər Quliyevin, polkovnik rütbəsinə qədər yüksəlmiş Xəlil Ağayevin və digərlərinin adı daim hörmətlə çəkilir.

Bu gün həmin tədris ocağında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin şagirdlərə öyrədilməsinə xüsusi diqqət yetirilir. Bunun üçün ayrıca guşə yaradılıb və burada ulu öndərin ömür yolunu əks etdirən çoxlu materiallar yerləşdirilib.

Məktəbdəki hərbi kabinə zənginliyi və müasirliyi ilə diqqəti cəlb edir. Kabinənin müxtəlif plakatlar və əyani vəsaitlərlə təmin olunması şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə şərait yaradır. Bu təhsil ocağındakı idman zalı şagirdlərin fiziki sağlamlığının qorunmasında, onların bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olmalarında əhəmiyyətli rol oynayır. Əyani vəsaitlərlə təchiz olunmuş fənn kabinələri, ayrıca olaraq informasiya vasitələri və elektron lövhələri olan kabinələr, dərslik və bədii ədəbiyyatla təmin edilmiş zəngin kitabxana şagirdlərin ixtiyarına verilib.

### Şərurlular zəhmətkeşliyi ilə nümunədirlər

Kənd həyatından danışarkən aqrar sahədə görülən işlərdən söz açmamaq olmaz. Sakinlərdən təqaüdçü müəllim Musa Muxtarov və bir neçə kənd ağsaqqalı ilə bu barədə həmsöhbət olduq. Onlar qeyd etdilər ki, Arpaçayın sağ sahilində, axarlı-baxarlı bir yerdə qərar tutan Aralığın torpağı qızıldır. İstənilən meyvə tingini götürün və torpağa basdırın, yerə bənd olmağı ilə kök atacaq, 3-4 ilə qollu-budaqlı ağac olub bar verəcək. Əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Elə torpağının barlı-bəhərli olmasının nəticəsidir ki, Aralıq həmişə çörəkli kənd olub. Çörəkli olduğu üçün də Aralıq həmişə dosta-qonağa qucaq açıb, bura yolu düşənlər hər kəs tərəfindən böyük qonaqpərvərliklə qarşılanıb. Dövlətimiz də bizə hərtərəfli dəstək olur, torpaqlarımızı əkib-becərməyimiz üçün əlverişli şərait yaradır. 14 subartezian quyusu, bir su anbarı həm içməli, həm də əkin sahələrinin suvarılması üçün sakinlərin xidmətindədir. Arpaçaydan öz axını ilə gələn suyun da kənddə bolluq yaradılmasında əhəmiyyəti böyükdür. Tərəvəzçilik də bu kəndlərdə gəlirli sahə kimi diqqəti cəlb edir.



Aralıq həm də dadlı-tamlı meyvələri ilə tanınır. Elə ki yay, payız gəldi meyvə bağlarında ərik, alma, armud, şaftalı, alça, heyva, gavalı ağaclarının budaqları yerə dəyir. Burada yeni meyvə tinglərinin salınması da ənənə halını alıb. Hasilə gələn məhsulun yaxşı şəraitdə saxlanılması, ilin bütün fəsillərində əhalinin tərəvəz və meyvə məhsulları ilə təmin olunması üçün bu kəndlərdə də 2015-ci ildə iki, 2019-cu ildə isə üçüncü soyuducu anbar istifadəyə verilib.

Aralıqda heyvandarlıq da inkişaf edib. Kənddə fəaliyyət göstərən baytarlıq məntəqəsi mal-qara arasında xəstəlik olmaması üçün bütün profilaktik tədbirləri vaxtlı-vaxtında həyata keçirir.

### Son söz

İlin bütün fəsillərində cənnəti xatırladan Aralıq kəndi bu gün müasir qəsəbə görkəmindədir. Aralığın simasında Şərurun daha bir yaşayış məntəqəsində şəhərlə kənd arasındakı fərqin ortadan qaldırıldığının şahidi olduq.



Bu, bir həqiqətdir ki, insanların layiq olduqları səviyyədə yaşamasına hesablanan siyasət yanarlılıqla yerinə yetirilirsə, bu yolda qarşıya çıxan maneələr qətiyyətlə dəf olunursa, orada xoş gün-güzəran, firavan həyat, yüksək yaşayış tərzi də gerçəkləşir. Bu isə kənd adamlarının qurub-yaratmaq əzminə öz müsbət təsirini göstərir. Kənd sakinləri Naxçıvanda ümummilli lider Heydər Əliyev quruculuq siyasətinin uğurla davam etdirildiyini, muxtar respublikamızın bütün yaşayış məntəqələrinə, həmçinin adıçəkilən kəndlərə diqqət və qayğı göstərildiyini xüsusi vurğuladılar. Bildirdilər ki, bu gün insan amilinə həssaslıqla yanaşılır, dövlətimiz bunu özünün prioritet vəzifəsi sayır. Gündən-günə çiçəklənən, gözəlləşən Aşağı Aralıq və Yuxarı Aralıq kəndləri tərəqqi və yüksəliş yolundadır.

*Kənddən ayrılırıq. Yolboyu kənddə gördüyüm könülaçan mənzərələri, dinlədiyim qürurverici söhbətləri xatırladıqca belə qənaətə gəlirəm: hərtərəfli dövlət qayğısı ilə əhatə olunan, bu qayğıdan yetərincə bəhrələnən, günü-gündən yaşayış səviyyəsi yüksələn Aralıqda yaşamaq, qurmaq, yaratmaq əzminə malik kənd adamlarının sabahı bundan da gözəl olacaq.*

Ramiyyə ƏKBƏROVA

# Komanda-qərargah təlimi başa çatıb

***"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən komanda-qərargah təliminə ümumqoşun birləşmə və hissələrinin qərargahları ilə birgə gücləndirmə vasitə və qüvvələrinin əməliyyat qrupları da cəlb edilib.***



Təlimdə qərargahlar tərəfindən yeni döyüş təlimatlarının müddəalarının tələblərinə uyğun hesablamalar aparılaraq, qəbul olunan qərarlara əsasən praktik fəaliyyətlərə cəlb edilən qüvvələrin fəaliyyətləri qiymətləndirilib.

Qoşunların cəmləşmə rayonlarında, ataş və start mövqelərində yerləşməsi, eləcə də döyüş fəaliyyətlərinin gedişi zamanı aviasiya və raket-artilleriya zərbələrinin endirilməsi üçün müvafiq bölmələrin çağırılması və ümumqoşun birləşmələri ilə qarşılıqlı fəaliyyəti praktik olaraq məşq etdirilib.

Ümumqoşun, raket-artilleriya, hava hücumundan müdafiə və digər qoşun növü bölmələrinin məhdud görmə şəraitində yerdəyişməsi həyata keçirilib, bir istiqamətdən digərinə hərəkət zamanı manevretmə qabiliyyətləri və aparılan hesabatların reallığı yoxlanılıb.

Komanda-qərargah təliminin sonuncu mərhələsində Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində hər iki tərəfin fəaliyyəti, qərarların və apardıqları hesablamaların reallığı kompüterlər üzərində keçirilən təlimdə qiymətləndirilib.

Təlimin sonunda icra edilmiş fəaliyyətlərin təhlili aparılıb, qarşıya qoyulmuş məqsədlərə nail olunduğu bildirilib. Təlimə cəlb olunan birləşmə və hissələrin komandir və qərargahlarının fəaliyyətləri qiymətləndirilərək aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində tapşırıqlar verilib.

Nəriman NƏCƏFOV

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində alman dili müəllimliyi və digər vakant vəzifələrə işə qəbul üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 18 mart-18 aprel 2020-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $09^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

**1. Müəllimlərin ümumi təhsil müəssisələrinə işə qəbulu**

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| **Naxçıvan şəhəri üzrə:** | | | | | |
| 6900222 | Naxçıvan Qızlar Liseyi | Alman dili | 1 | 12 | |
| 6910522 | 5 nömrəli tam orta məktəb | Alman dili | 2 | 24 | |
| 6910822 | 8 nömrəli tam orta məktəb | Alman dili | 1 | 12 | |
| 6911422 | 14 nömrəli tam orta məktəb | Alman dili | 1 | 12 | |
| **Cəmi:** | | | **5 yer** | | |
| **Şərur rayonu üzrə:** | | | | | |
| 6924922 | Xanlıqlar kənd tam orta məktəbi | Alman dili | 1 | 10 | |
| 6925022 | Xələc kənd tam orta məktəbi | Alman dili | 1 | 11 | |
| 6924822 | Vərməziyar kənd tam orta məktəbi | Alman dili | 1 | 11 | |
| **Cəmi:** | | | **3 yer** | | |
| **Babək rayonu üzrə:** | | | | | |
| 6931222 | Güznüt kənd tam orta məktəbi | Alman dili | 1 | 11 | |
| 6932122 | Nehrəm kənd 1 nömrəli tam orta məktəb | Alman dili | 1 | 12 | |
| 6932222 | Nehrəm kənd 2 nömrəli tam orta məktəb | Alman dili | 2 | 24 | |
| 6932722 | Sirab kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | * |
| **Cəmi:** | | | **5 yer** | | |
| **Ordubad rayonu üzrə:** | | | | | |
| 6940122 | Ordubad şəhər 1 nömrəli tam orta məktəb | Alman dili | 1 | 14 | |
| **Cəmi:** | | | **1 yer** | | |
| **Culfa rayonu üzrə:** | | | | | |
| 6951422 | Gülüstan kənd tam orta məktəbi | Alman dili | 1 | 10 | |
| 6952022 | Saltaq kənd tam orta məktəbi | Alman dili | 1 | 10 | * |
| **Cəmi:** | | | **2 yer** | | |
| **Kəngərli rayonu üzrə:** | | | | | |
| 6970222 | Böyükdüz kənd tam orta məktəbi | Alman dili | 1 | 10 | |
| **Cəmi:** | | | **1 yer** | | |
| **Sədərək rayonu üzrə:** | | | | | |
| 6980322 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | Alman dili | 2 | 24 | |
| 6980422 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | Alman dili | 1 | 18 | |
| **Cəmi:** | | | **3 yer** | | |
| **Yekun:** | | | **20 yer** | | |

**2. Ümumi təhsil müəssisələrində vakant vəzifələrə işə qəbul**

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Qeyd |
|---|---|---|---|---|
| **Naxçıvan şəhəri üzrə:** | | | | |
| 6900127 | Heydər Əliyev adına tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6900137 | Heydər Əliyev adına tam orta məktəb | Psixoloq | 1 | |
| 6910354 | 3 nömrəli tam orta məktəb | Laborant (fizika) | 1 | ** |
| 6910427 | 4 nömrəli tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6910754 | 7 nömrəli tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6911143 | 11 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6911137 | 11 nömrəli tam orta məktəb | Psixoloq | 1 | |
| 6911227 | 12 nömrəli tam orta məktəb | Kitabxana müdiri | 1 | |
| 6911443 | 14 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6911454 | 14 nömrəli tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6911452 | 14 nömrəli tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6911437 | 14 nömrəli tam orta məktəb | Psixoloq | 1 | |
| 6911543 | 15 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6911506 | 15 nömrəli tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6911743 | 17 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| **Cəmi:** | | | **15 yer** | |
| **Şərur rayonu üzrə:** | | | | |
| 6900427 | Fizika-Riyaziyyat Təmayüllü Lisey | Kitabxana müdiri | 1 | |
| 6900454 | Fizika-Riyaziyyat Təmayüllü Lisey | Laborant (fizika) | 1 | |
| 6900449 | Fizika-Riyaziyyat Təmayüllü Lisey | Tərbiyəçi | 1 | |
| 6920243 | Şərur şəhər 2 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6920253 | Şərur şəhər 2 nömrəli tam orta məktəb | Laborant (biologiya) | 1 | |
| 6920856 | Axaməd kənd tam orta məktəbi | Laborant (kimya-biologiya-fizika) | 1 | |
| 6920837 | Axaməd kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6920927 | Axura kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6920637 | Aşağı Daşarx kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6921455 | Danyeri kənd tam orta məktəbi | Laborant (kimya-biologiya) | 0.5 | |
| 6921856 | Diyadin kənd tam orta məktəbi | Laborant (kimya-biologiya-fizika) | 1 | |
| 6922027 | Düdəngə kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6922037 | Düdəngə kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6922437 | Havuş kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6922527 | Həmzəli kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6922727 | Kərimbəyli kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6923906 | Qarxun kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6924027 | Qorçulu kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6923627 | Püsyan kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6924127 | Sərxanlı kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6924556 | Tənənəm kənd tam orta məktəbi | Laborant (kimya-biologiya-fizika) | 1 | |
| 6924827 | Vərməziyar kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6924855 | Vərməziyar kənd tam orta məktəbi | Laborant (kimya-biologiya) | 0.5 | |
| 6925237 | Yengicə kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6925455 | Yuxarı Daşarx kənd tam orta məktəbi | Laborant (kimya-biologiya) | 1 | |
| **Cəmi:** | | | **25 yer** | |
| **Babək rayonu üzrə:** | | | | |
| 6930254 | Babək qəsəbə 2 nömrəli tam orta məktəb | Laborant (fizika) | 1 | |
| 6930252 | Babək qəsəbə 2 nömrəli tam orta məktəb | Laborant (kimya) | 0.5 | |
| 6930343 | Araz kənd ümumi orta məktəbi | Kitabxanaçı | 1 | |
| 6930543 | Cəhri kənd 1 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6931037 | Göynük kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6931143 | Gülşənabad kənd ümumi orta məktəbi | Kitabxanaçı | 1 | |
| 6931353 | Hacıvar kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6931827 | Naxışnərgiz kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6931952 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6931906 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6932143 | Nehrəm kənd 1 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6932243 | Nehrəm kənd 2 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6932352 | Nehrəm kənd 3 nömrəli tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6932637 | Qaraqala kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6932454 | Payız kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6933027 | Uzunoba kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6933455 | Yarımca kənd tam orta məktəbi | Laborant (kimya-biologiya) | 1 | |
| 6933543 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Kitabxanaçı | 1 | |
| 6933637 | Zeynəddin kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| **Cəmi:** | | | **19 yer** | |
| **Ordubad rayonu üzrə:** | | | | |
| 6940427 | Aşağı Əylis kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6940906 | Biləv kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6941137 | Çənnəb kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6941637 | Düylün kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6941806 | Əndəmic kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6942037 | Gilançay kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942137 | Kələki kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942337 | Nəsirvaz kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942437 | Nürgüt kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6942506 | Nüsnüs kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6942827 | Sabirkənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6942937 | Tivi kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6943137 | Üstüpü kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6943254 | Vələver kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| **Cəmi:** | | | **14 yer** | |
| **Culfa rayonu üzrə:** | | | | |
| 6950243 | Culfa şəhər 2 nömrəli tam orta məktəb | Kitabxanaçı | 1 | |
| 6950306 | Culfa şəhər 3 nömrəli tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6950506 | Boyəhməd kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6950753 | Dizə kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6950827 | Əbrəqunus kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6950837 | Əbrəqunus kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6951243 | Gal kənd tam orta məktəbi | Kitabxanaçı | 1 | |
| 6951427 | Gülüstan kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6951853 | Qazançı kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6951637 | Ləkətağ kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6951606 | Ləkətağ kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6952027 | Saltaq kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6952327 | Xanəgah kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6952354 | Xanəgah kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6952427 | Xoşkeşin kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6952453 | Xoşkeşin kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| **Cəmi:** | | | **16 yer** | |
| **Kəngərli rayonu üzrə:** | | | | |
| 6970143 | Qıvraq qəsəbə tam orta məktəbi | Kitabxanaçı | 1 | |
| 6970906 | Xıncab kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6970437 | Qabıllı kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6970652 | Qarabağlar kənd 2 nömrəli tam orta məktəb | Laborant (kimya) | 1 | |
| 6970827 | Təzəkənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6971137 | Yeni Kərki kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6971227 | Yurdçu kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| **Cəmi:** | | | **7 yer** | |

| | | | | |
|---|---|---|---|---|
| Şahbuz rayonu üzrə: | | | | |
| 6960106 | Şahbuz şəhər 1 nömrəli tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6960206 | Şahbuz şəhər 2 nömrəli tam orta məktəb | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6960327 | Ağbulaq kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6960337 | Ağbulaq kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6961053 | Gömür kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6961137 | Güney Qışlaq kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6961227 | Keçili kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6961252 | Keçili kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6961206 | Keçili kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6961337 | Kolanı kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6961427 | Kükü kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6961527 | Külüs kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6961627 | Mahmudoba kənd tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6961606 | Mahmudoba kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6961854 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Laborant (fizika) | 1 | |
| 6962053 | Şada kənd tam orta məktəbi | Laborant (biologiya) | 1 | |
| 6962037 | Şada kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6962006 | Şada kənd tam orta məktəbi | Uşaq birliyi təşkilatının rəhbəri | 1 | |
| 6962152 | Şahbuzkənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6961952 | Sələsüz kənd tam orta məktəbi | Laborant (kimya) | 1 | |
| 6962237 | Türkeş kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| Cəmi: | | 21 yer | | |
| Sədərək rayonu üzrə: | | | | |
| 6980127 | Heydərabad qəsəbə tam orta məktəbi | Kitabxana müdiri | 1 | |
| 6980237 | Qaraağac kənd tam orta məktəbi | Psixoloq | 1 | |
| 6980437 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | Psixoloq | 1 | |
| Cəmi: | | 3 yer | | |
| Yekun: | | 120 yer | | |

(*) Bu müəssisələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli Qərarına əsasən stimullaşdırıcı tədbirlər müəyyən edilən təhsil müəssisələridir.

(**) Naxçıvan şəhər 3 №-li tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 31 mart 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitələri | Markası və modeli | Nəqliyyatın ilkin satış qiyməti (manat) | Nəqliyyatın 15 faiz güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 2013-cü il buraxılışlı tırtıllı ekskavator | Wacker Neuson 50z3 | 31.000 | 26.350 | 3.100 |
| 2. | 2013-cü il buraxılışlı tırtıllı ekskavator | Wacker Neuson 50z3 | 31.000 | 26.350 | 3.100 |
| 3. | 2013-cü il buraxılışlı tırtıllı ekskavator | Wacker Neuson 3 8z3 | 29.000 | 24.650 | 2.900 |
| 4. | 2010-cu il buraxılışlı vərdənə | Sakai | 4.500 | 3.825 | 450 |
| 5. | Qırıcı | SM35 | 2.000 | 1.700 | 200 |
| 6. | Qırıcı | SM40 | 2.000 | 1.700 | 200 |
| 7. | Qırıcı | SM40 | 2.000 | 1.700 | 200 |
| 8. | Qırıcı | CAT432 | 2.500 | 2.125 | 250 |
| 9. | Qırıcı | HMK102S | 1.500 | 1.275 | 150 |
| 10. | Qırıcı | CAT336 D | 1.500 | 1.275 | 150 |
| 11. | 2012-ci il buraxılışlı yükləyici | D-30 Model 3300mm | 9.000 | 7.650 | 900 |
| 12. | 2012-ci il buraxılışlı yükləyici | D-30 Model 4500mm | 10.000 | 8.500 | 1.000 |
| 13. | 2011-ci il buraxılışlı ekskavator | HITACHI | 70.000 | 59.500 | 7.000 |
| 14. | 1989-cu il buraxılışlı sərnişin avtobusu | PAZ-672M | 2.000 | 1.700 | 2.000 |
| 15. | 2011-ci il buraxılışlı təkərli yükləyici | Caterpillar 262 c | 22.500 | 19.125 | 2.250 |
| 16. | 2011-ci il buraxılışlı təkərli yükləyici | Caterpillar 262 c | 20.500 | 17.425 | 2.050 |
| 17. | 2008-ci il buraxılışlı ekskavator | Hidromek 102 S | 30.700 | 26.095 | 3.070 |
| 18. | 2013-cü il buraxılışlı mini yükləyici | Hidromek 62 SS | 23.000 | 19.550 | 2.300 |
| 19. | 2013-cü il buraxılışlı mini yükləyici | Hidromek 62 SS | 30.000 | 25.500 | 3.000 |
| 20. | 2013-cü il buraxılışlı tırtıllı ekskvator | Wacker Neuson 75 Z3 | 83.000 | 70.550 | 8.300 |
| 21. | 2013-cü il buraxılışlı yükləyici | Kramer Allrad 1150 | 37.500 | 31.875 | 3.750 |
| 22. | 2013-cü il buraxılışlı yükləyici | Kramer Allrad 2506 | 26.400 | 22.440 | 2.640 |
| 23. | 2013-cü il buraxılışlı yükləyici | Kramer Allrad 650 | 27.000 | 22.950 | 2.700 |
| 24. | 2011-ci il buraxılışlı minik avtomobili | Vaz NIVA | 7.500 | 6.375 | 750 |
| 25. | 2010-cu il buraxılışlı minik avtomobili | Vaz NIVA | 7.000 | 5.950 | 700 |
| 26. | 2009-cu il buraxılışlı minik avtomobili | Vaz NIVA xetcberq | 6.500 | 5.525 | 650 |
| 27. | 2009-cu il buraxılışlı minik avtomobili | Opel combo | 9.000 | 7.650 | 900 |
| 28. | 2007-ci il buraxılışlı Tentli yarımqoşqu | SCHMİTS S01 | 25.000 | 21.250 | 2.500 |
| 29. | 1986-cı il buraxılışlı sisterna | Qaz 53 1201 xüsusi | 2.000 | 1.700 | 200 |
| 30. | 1990-cı il buraxılışlı sisterna | Qaz 52 01 | 2.000 | 1.700 | 200 |
| 31. | 1978-ci il buraxılışlı sisterna | Maz 500 | 3.500 | 2.975 | 350 |
| 32. | 1989-cu il buraxılışlı yük avtomobili | Arbeitsgem V W | 13.000 | 11.050 | 1.300 |
| 33. | 2011-ci il buraxılışlı yarımqoşqu | LP G2 BORO | 2.500 | 2.125 | 250 |
| 34. | 1983-cü il buraxılışlı qoşqu | CMZAP 5523A | 3.000 | 2.550 | 300 |
| 35. | 2011-ci il buraxılışlı qoşqu | PDP 35 | 3.000 | 2.550 | 300 |
| 36. | 2006-cı il buraxılışlı yük avtomobili | Volvo FM-4X2T | 45.000 | 38.250 | 4.500 |
| 37. | 2007-ci il buraxılışlı vaqon | Nissan Primastar | 13.000 | 11.050 | 1.300 |
| 38. | 2007-ci il buraxılışlı vaqon | Mercedes 906KA30 | 18.000 | 15.300 | 1.800 |
| 39. | 2011-ci il buraxılışlı ekskavator | Caterpillar 336 D | 70.000 | 59.500 | 7.000 |
| 40 | 2005-ci il buraxılışlı mikser | Mercedes Benz 3028 B | 18.000 | 15.300 | 1.800 |
| 41. | 2008-ci il buraxılışlı özüboşaldan | HOWO | 29.000 | 24.650 | 2.900 |
| 42. | 2003-cü il buraxılışlı sisterna | Zil 5301 | 3.500 | 2.975 | 350 |
| 43. | 2007-ci il buraxılışlı betonqarışdıran mikser | HOWO ZZ 1257 | 27.000 | 22.950 | 2.700 |
| 44. | 2008-ci il buraxılışlı yük avtomobili | Mercedes Benz 4141 | 35.000 | 29.750 | 3.500 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki Auksion Mərkəzinin Xüsusi Vəsaitlər Hesabına 31 mart 2020-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 31 mart 2020-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 31 mart 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq əmlaklar | Hüquqi ünvanı | Torpağın sahəsi (ha) | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 15 faiz güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|---|
| 1. | Metal əritmə zavodu, ofis və istehsal sexi, ofis binası, dülgər və boya sexləri | Azərbaycan küçəsi 20 | 0.7308 | 1.021.000 | 867.850 | 51.050 |
| 2. | Mebel istehsalı müəssisəsi | Azərbaycan küçəsi 13 | 1.9307 | 1.837.000 | 1.561.450 | 91.850 |
| 3. | Beton məmulatları kompleksi | Babək rayonu, Babək qəsəbəsi | 3.5025 | 930.000 | 790.500 | 46.500 |
| 4. | Çoxmərtəbəli bina | Naxçıvan şəhəri İ.Məmmədov küçəsi 1A | 3644.94 | 1.457.600 | 1.238.960 | 72.880 |
| 5. | Qeyri-yaşayış binası | Xətai məhəlləsi, döngə 8/80 | 0.03 | 150.000 | 127.500 | 7.500 |
| 6. | Əmlak kompleksi | Xətai məhəlləsi, döngə 8/69A | 0.4732 | 120.000 | 102.000 | 6.000 |
| 7. | Torpaq sahəsi | Azərbaycan küçəsi 20A | 1.1322 | 390.000 | 331.500 | 19.500 |
| 8. | Köməkçi sahələrdən ibarət əmlak kompleksi, anbarlar reklam bölməsi, alikopand, plastik qapı-pəncərə, mis üzərində döymə emalatxanaları, yarıtikililər, Ayna istehsalı və şüşəişləmə xəttləri, poliuretan istehsalı, Ofis və penoplast lövhələr istehsalı, Profil istehsalı zavodu | Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi | 1.6182 | 2.170.000 | 1.844.500 | 92.225 |
| 9. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, 10-cu küçə, 10 | 987 kv.metr | 270.000 | 229.500 | 13.500 |
| 10. | Yaşayış sahəsi | Şahbuz rayon Biçənək kəndi | 6229 kv.metr | 310.000 | 263.500 | 15.550 |
| 11. | Yaşayış sahəsi | Şahbuz şəhəri, Bakı küçəsi döngə 1, ev 5 | 343.3 kv.metr | 120.000 | 102.000 | 6.000 |
| 12. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, İstiqlal küçəsi bina 103, ev 35 | 59.58 kv.metr | 180.000 | 153.000 | 9.000 |
| 13. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, İstiqlal küçəsi bina 103, ev 24 | 28.78 kv.metr | | | |
| 14. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, İstiqlal küçəsi bina 103, ev 23 | 43.41 kv.metr | | | |
| 15. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, 20 Yanvar küçəsi 14 | 1418 kv.metr | 580.000 | 493.000 | 29.000 |
| 16. | Yaşayış sahəsi | Naxçıvan şəhəri, 20 Yanvar küçəsi döngə 1, ev 2 | 825 kv.metr | 270.000 | 229.500 | 13.500 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki Auksion Mərkəzinin Xüsusi Vəsaitlər Hesabına 31 mart 2020-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 31 mart 2020-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Boksçumuz *“Tokio-2020”*yə vəsiqə qazanıb

*Boks üzrə Azərbaycan milli komandası “Tokio-2020” Yay Olimpiya Oyunlarına ilk lisenziyasını qazanıb.*



Yığmamızın heyətində bu hüquqa Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirməsi Tayfur Əliyev yiyələnib. Avropa Oyunlarının mükafatçısı Böyük Britaniyanın paytaxtı Londonda keçirilən Avropa Olimpiya Təsnifat Turnirində 1/4 finala yüksəlməklə “Tokio-2020”də iştirak hüququna sahib olub. 57 kiloqram çəki dərəcəsində mübarizə aparan 23 yaşlı boksçu 1/8 finalda Edqaras Skurdelisdən (Litva) üstün olub. Rəqibi ilk hissədə zədələndiyindən döyüşü davam etdirə bilməyib və Tayfur Əliyev qalib elan olunub.

Qeyd edək ki, yarış gecə seansından sonra dayandırıldığından 1/4 final qarşılaşması turnir bərpa olunduqdan sonra baş tutacaq. Azərbaycan yığması yarışa 11 boksçu (8 kişi, 3 qadın) ilə qatılıb.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 276